# UNUDULMAZ ALİM, NƏCİB İNSAN



**1920-ci ilin dekabrından Bakı Politexnik İnstitutunun nəzdində kənd təsərrüfatı fakültəsi, 1929-cu ilin mayından Azərbaycan Kənd Təsərrüfatı İnstitutu kimi fəaliyyətini davam etdirmiş bugünkü Azərbaycan Dövlət Aqrar Universiteti keçmiş SSRİ məkanında fəaliyyət göstərən 108 kənd təsərrüfatı institutu arasında özünəməxsus layiqli yer tutmuş, hazırladığı mütəxəssislər, yetişdirdiyi alimlərlə şöhrət qazanmışdır. Burada çalışmış görkəmli akademiklər, akademiyaların müxbir üzvləri, professorlar, o cümlədən direktor və rektorlar da müəyyən iz qoyub getmişlər.**

Azərbaycan MEA-nın həqiqi üzvü Məmmədtağı Cəfərov insanlıqla alimliyin vəhdətini özündə cəmləşdirən nadir şəxslərdən biri olmaqla keşməkeşli və zəhmətlə dolu şərəfli bir ömür yaşamışdır.

Azərbaycan elmi və pedaqoji ictimaiyyətinin görkəmli nümayəndələrindən biri olan Məmmədtağı Cəfərovun bir neçə onillikləri əhatə edən mənalı həyatının 50 ildən çoxu doğma Vətənimizə və xalqımıza fədakarcasına xidmətdə keçmişdir.

Məmmədtağı İbrahim oğlu Cəfərov 1936-cı ildə Qərbi Azərbaycanın Amasiya rayonunun Oxçuoğlu kəndində kolxozçu ailəsində anadan olmuş, 7 yaşında ikən anasını itirmiş, həyatın sərt və amansız sınaqları ilə üzləşmişdir. O, ilk təhsilini kənd 8 illik məktəbində aldıqdan sonra Yerevan - Azərbaycanlı kənd təsərrüfatı texnikumunu fərqlənmə diplomu ilə bitirmiş, 1954-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun (indiki ADAU) aqronomluq fakültəsinə qəbul olunmuş, Stalin təqaüdü ilə təhsil almış, 1959-cu ildə təhsilini fərqlənmə diplomu ilə başa vurmuş və ömrünün sonunadək (2007) yalnız bir müəssisədə - Azərbaycan Dövlət Aqrar Universitetində çalışmışdır. Hələ tələbə ikən bu təhsil və elm məbədinin ictimai həyatında fəal iştirak etmiş, institut tələbə həmkarlar ittifaqı komitəsinin sədri olmuşdur. İnstitutu bitirdikdən sonra bir neçə ay bu ali məktəbin tədris təcrübə təsərrüfatında aqronom, sonra bir il kənd təsərrüfatı müəssisələrinin təşkili kafedrasında assistent işləmişdir. Hələ tələbəlik illərindən başladığı elmi axtarışlarını o, əyani aspirantura yolu ilə davam etdirmiş, 1964-cü ildə "Azərbaycanın əsas torpaq tiplərində fosforun birləşmələri" mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə etmiş, kənd təsərrüfatı elmləri namizədi alimlik dərəcəsi, 1966-cı ildə dosent elmi adı almışdır. Öz elmi araşdırmalarını pedaqoji sahədəki uğurlu fəaliyyəti ilə paralel şəkildə aparan M.Cəfərov aspiranturadan sonra bu universitetin aqrokimya kafedrasında assistent, dosent, sonralar torpaqşünaslıq və kənd təsərrüfatının meliorasiyası kafedrasının müdiri vəzifələrində işləmişdir.

M.Cəfərov 1973-cü ildə Belorusiya Elmi-Tədqiqat Əkinçilik İnstitutunda "Azərbaycan torpaqlarında və əkinçiliyində fosfatlar problemi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək kənd təsərrüfatı elmləri doktoru alimlik dərəcəsi, 1975-ci ildə professor elmi adı almış, bunlarla yanaşı, müəllifin çoxillik elmi-tədqiqat işlərinin nəticəsi "Azərbaycanın əsas əkinçilik zonalarında qida maddələrinin balansı" monoqrafiyasında öz əksini tapmışdır.

Müxtəlif beynəlxalq konqreslərdə, qurultaylarda, simpoziumlarda və forumlarda Azərbaycanın əsas torpaq tiplərinin fiziki-kimyəvi xassələrinə təsir edən amillər barədə məruzələr edən akademikin 2 hissədən ibarət "Torpaqşünaslıq", "Torpaq fondu və ondan səmərəli istifadə", "Kənd təsərrüfatı bitkilərinin becərilmə və yığılma texnologiyası" dərslikləri, "Azərbaycan torpaqlarında diferensial gübrələmə sisteminin əsasları", "Torpaqşünaslıq və geologiyanın əsasları", "İrimiqyaslı torpaq xəritələrinin tərtibi və istifadəsi" və b. əsərləri respublikamızda torpaqşünaslıq, yerquruluşu, torpaq kadastrı elmlərinin inkişafında mühüm rol oynamışdır.

1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü seçildikdən sonra onun elmi fəaliyyəti daha genişmiqyaslı problemlərin həllinə yönəlmişdir. Həmin dövrlərdə professor M.Cəfərovun rəhbərliyi ilə AKTA əməkdaşlarının yaratdıqları və Dövlət Sort Sınağına təqdim etdikləri "ADKTA-70", "Kəpəz", "Yubiley" qarğıdalı və "Azərbaycan-1" pambıq sortlarının yeni becərilmə texnologiyaları işlənib hazırlanmışdır ki, bu da orta hesabla məhsuldarlığın 20 faiz artmasına şərait yaratmışdır.

Bu görkəmli alimin çoxcəhətli elmi fəaliyyəti bu göstərilənlərlə məhdudlaşmır. O, kənd təsərrüfatı elminin bir sıra mühüm problemlərinin tədqiqi ilə məşğul olmuş, onu yeni nəticə və müddəalarla zənginləşdirmişdir.

Məmmədtağı Cəfərovun fosfor balansı və onun formalarının öyrənilməsi istiqamətində apardığı elmi tədqiqatlarının nəticələri böyük alim V.D.Pryanişnikovun 100 illiyinə həsr olunmuş elmi-praktik konfransda akademik Qinzburq-Rabinoviç, V.F.Çirikov, V.B.Sokolov, V.A.Kovda və başqaları tərəfindən yüksək qiymətləndirilmişdir.

Məmmədtağı Cəfərov torpaqşünaslıq elmindəki nailiyyətlərinə görə daim bu universitetin görkəmli məzunu akademik Həsən Əliyevi özünün müəllimi hesab edər, onu minnətdarlıq hissi ilə xatırlayardı.

Bütün şüurlu həyatını Azərbaycanda kənd təsərrüfatı elminin inkişafına həsr edən bu görkəmli elm fədaisi gənc alimlərin və mütəxəssislərin hazırlanması sahəsində də öz əməyini əsirgəməmişdir. M.Cəfərovun elmi rəhbərliyi və elmi məsləhəti ilə 8 namizədlik, 1 doktorluq dissertasiyası müvəffəqiyyətlə müdafiə olunmuşdur. Bu gün istər respublikamızda, istərsə də ölkə hüdudlarından kənarda M.Cəfərovun yetirmələrinə rast gəlmək olar.

Məmmədtağı müəllim özünün yüksək təşkilatçılıq bacarığı, rəhbər işçiyə xas olan ali mənəvi keyfiyyətləri ilə də respublika ictimaiyyəti arasında böyük nüfuz qazanmışdır. O, 1983-cü ildə Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna rektor təyin olunmuş və elə ilk günlərdən xalqımızın böyük oğlu, ulu öndərimiz Heydər Əliyevin vaxtilə AKTA-nın yeni tədris kompleksinin inşası ilə əlaqədar irəli sürdüyü təşəbbüsün tezliklə həyata keçirilməsinə çalışmış və qısa müddətdə nəzərdə tutulmuş işlərin böyük bir qisminin yerinə yetirilməsinə nail olmuşdur.

1989-cu ildə respublikamızda səriştəsiz rəhbərliyin apardığı qərəzli kadr siyasəti M.Cəfərovun tutduğu məsul vəzifədən uzaqlaşdırılmasına səbəb oldu. Lakin heç bir kənar qüvvə, mənəvi repressiya güclü təşkilatçılıq bacarığına malik olan bu görkəmli alimin iradəsini, qürur və ləyaqətini sındıra bilmədi. 1993-cü ildən sonra dahi şəxsiyyət Heydər Əliyevin taleyin hökmü ilə yenidən respublikamıza rəhbərlik etməyə başlaması M.Cəfərovun həyatında əsaslı dönüş yaratdı. O, ikinci dəfə AKTA-ya rektor təyin edildi və vaxtilə akademiyada həyata keçirdiyi genişmiqyaslı quruculuq işlərini uğurla davam etdirdi.

M.Cəfərov 2002-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilib, Moskvada fəaliyyət göstərən Beynəlxalq Torpaqşünaslıq və Ekoloq Alimlər Assosiasiyası Rəyasət Heyətinin üzvlüyünə qəbul olunub.

1992-ci ildə bünövrəsi ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş Yeni Azərbaycan Partiyasının yaradılmasının təşəbbüskarlarından biri kimi bu partiyanın Siyasi Şurasının üzvü, YAP Gəncə şəhər təşkilatının sədri olan Məmmədtağı Cəfərov Yeni Azərbaycan Partiyasının yaradılması və Azərbaycanda siyasi hakimiyyətə qayıdışı barədə ulu öndər Heydər Əliyevə tarixi müraciəti imzalayan məşhur "91-lər"dən biridir.

Bu partiyanın xalq arasında nüfuzunun yüksəlməsində də M.Cəfərovun əməyi az olmamışdır. Torpaqlarımızın, ərazi bütövlüyünün bərpa olunması, milli dövlətçiliyimizin möhkəmləndirilməsi, siyasi müstəqilliyimizin təmin edilməsi, iqtisadi münasibətlərin özəl strukturlar əsasında yeniləşdirilməsi M.Cəfərovun təmsil etdiyi qurumun başlıca məram və məqsədini müəyyənləşdirir.

Görkəmli alim hələ sağlığında vaxtaşırı cəbhə bölgələrində olmuş, əsgərlərlə görüşüb söhbət etmiş, onları doğma torpaqlarımızın keşiyində daim ayıq-sayıq dayanmağa ruhlandırmışdır. O, doğma yurd-yuvalarından zorla qovulmuş və qaçqın və məcburi köçkün vəziyyətində yaşayan həmvətənlərimizlə də görüşmüş, onlara maddi yardım göstərilməsi üçün heç nəyi əsirgəməmişdir.

Akademik Məmmədtağı Cəfərov səmərəli elmi fəaliyyətinə görə Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülmüş, "Şərəf nişanı" ordeni və "SSRİ-nin maarif əlaçısı" döş nişanı ilə təltif olunmuşdur.

2001-ci ilin aprel ayında isə Azərbaycan Kənd Təsərrüfatı Akademiyası və rektor Məmmədtağı Cəfərov Fransanın "Sənayeyə Yardım Assosiasiyasının Qızıl medalı"na layiq görülmüşdür.

Tanınmış ictimai xadim, görkəmli alim, gözəl insan Məmmədtağı Cəfərovun çoxcəhətli və çoxşaxəli fəaliyyəti, mənalı və ibrətli həyat yolu əsl ziyalı şəxsiyyətinin ən tipik nümunəsidir.

Azərbaycan Milli Elmlər Akademiyasının, 4 beynəlxalq akademiyanın həqiqi üzvü, Azərbaycan Kənd Təsərrüfatı Akademiyasının rektoru, Azərbaycan Ziyalılar Cəmiyyətinin sədri Məmmədtağı İbrahim oğlu Cəfərov torpaqşünaslıq və torpaq kimyası sahəsi üzrə geniş əhatəli və dəyərli tədqiqat işləri ilə ölkəmizdə və onun hüdudlarından kənarda aparıcı alim kimi bu gün də yaddaşlardadır.

Belə bir deyim var: "Adam var evdən gedir, adam var eldən". Akademik Məmmədtağı Cəfərov eldən gedən insanlardandır.

İndi Məmmədtağı müəllim Gəncədə Səbiskar qəbiristanlığında uyuyur. Universitetin qədirbilən kollektivi onun qəbrini mütəmadi ziyarət edərək bu xeyirxah və vətənpərvər alimə rəhmət diləyir.

Budur Məmmədtağı müəllimə əsl xalq sevgisi.

**İbrahim CƏFƏROV,**
**ADAU-nun rektoru,**
**AMEA-nın müxbir üzvü,**
**professor.**